

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 57 (21.718)

28 mart 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 26-da Danimarkanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Svend Ollinqin etimadnaməsini qəbul edib.

Svend Ollinq etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Danimarka arasında ikitərəfli əlaqələri müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə inkişaf etdirməyin zəruriliyini vurğuladı. Hazırda ölkələrimiz arasında iqtisadi, o cümlədən ticarət sahəsində əməkdaşlığın aşağı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev daha çox biznes əlaqələrinə malik olmağın vacibliyini bildirdi.

Danimarka şirkətlərinin Azərbaycandakı uğurlu fəaliyyətinə toxunan fövqəladə və səlahiyyətli səfir Svend Ollinq ölkəsini təmsil edən şirkətin Azərbaycanın neft sektoruna sərmayə qoyduğunu, "Carlsberg" şirkətinin Azərbaycanda fəaliyyət göstərdiyini vurğulayaraq hazırda ölkəmizin qida sənayesinə investorları cəlb etdiklərini bildirdi. O, Danimarka şirkətlərinin ölkəmizə müasir texnologiya gətirəcəklərini və azərbaycanlı tərəfdaşları ilə birgə İsmayıllı rayonunda hind quşu fabrikini açmağı planlaşdırdıqlarını dedi.

Dövlətimizin başçısı Danimarka şirkətlərinin ölkəmizin regionlarında qeyri-neft sektoruna sərmayə yatırmalarını Azərbaycanın iqtisadi siyasətinə uyğun olduğunu vurğuladı və bunun regionların inkişaf etdirilməsi, yerli istehsalın genişləndirilməsi, idxaldan asılılığın azaldılması və daha çox ixrac imkanlarının artırılması baxımından önəmini qeyd etdi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 27 mart tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında milli təhlükəsizliyin təmin edilməsində, xarici xüsusi xidmət orqanlarının kəşfiyyat-pozuculuq fəaliyyətinin qarşısının alınmasında, beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizədə fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin bir qrup əməkdaşı təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları da vardır.

**Ələkbərov Fazil Nəriman oğlu – general-mayor**

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə,

**Cəfərov Şəhruz Cəlaləddin oğlu – kapitan**

"Vətən uğrunda" medalı ilə,

**Məmmədov Madar İbrahim oğlu – kapitan**

**Paşayev Elnur Elman oğlu – kapitan**

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişlər.

## Naxçıvanda keçirilən iməciliklərdə yeni tinglər əkilmişdir





Xalqımıza məxsus milli dəyərlər və adət-ənənələrin əsasında vətənpərvərlik, saflıq və xeyirxahlıq kimi savab əməllər dayanır. Bu gün Naxçıvanda insanlar milli-mənəvi dəyərlərimizə və adət-ənənələrimizə hörmətlə yanaşır, mənəvi saflıq və həmrəylik nümayiş etdirirlər. Dini dəyərlərimizə uyğun olaraq muxtar respublika ərazisindəki qəbiristanlıqlarda iməciliklərin keçirilməsi də bu tədbirlərin davamı kimi mühüm əhəmiyyətə malikdir.

Martın 25-də Naxçıvan Muxtar Respublikasında yazın gəlişi qəbiristanlıqlarda səliqə-sahman yaratmaq və yaşıllıqlar salmaqla əlamətdar oldu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, nazirlik, komitə və digər mərkəzi təşkilatların, məhkəmə, hüquq-mühafizə orqanlarının kollektivləri və ictimaiyyətin nümayəndələri Naxçıvan Şəhər Qəbiristanlığında iməcilik keçirmiş, təmizlik işləri görülmüş, 2200 ədəd həmişəyaşıl ting əkmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, yeni tinglər əkmişdir. Ali Məclisin Sədri təmizlik işlərinin davam etdirilməsi və yaşıllıqların salınması barədə tapşırıqlar vermişdir.

Həmin gün muxtar respublika ərazisindəki qəbiristanlıqlarda iməciliklər yolu ilə 22 minə yaxın ting əkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Şərur şəhər 2 nömrəli tam orta məktəbin yeni binası istifadəyə verilmişdir



Muxtar respublikada müasir tələblərə uyğun məktəb binalarının tikilməsi, tədrisin məzmununun yeniləşməsi və yeni texnologiyaların tətbiqi təhsil göstəricilərini yaxşılaşdırmışdır.

Martın 27-də Şərur şəhər 2 nömrəli tam orta məktəbin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəbin açılışını bildirən lenti kəsmişdir.

Məktəbin direktoru Sevil Hacıyeva çıxış edərək demişdir: Şərur rayonunda geniş quruculuq işlərinin aparılması bizi çox sevindirir. Rayonun quruculuq ünvanlarından biri də bu gün açılışı olan Şərur şəhər 2 nömrəli tam orta məktəbidir. Məktəb binası ən müasir tələblərə cavab verir. Burada yaradılan şərait həm müəllimlərin, həm də valideynlərin arzularının həyata keçməsi deməkdir. Sevil Hacıyeva təhsilin inkişafına göstərdiyi qayğıya görə məktəb kollektivi və valideynlər adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərur şəhərində müasir təhsilin tələblərinə cavab verən məktəb binasının istifadəyə verildiyini bildirmiş, bu münasibətlə kollektivi təbrik edərək demişdir: Məktəb işi hər bir ölkədə ən vacib sahə hesab olunur. Ona görə ki, məktəbdə ölkənin gələcəyi hazırlanır. Ümummilli liderimiz Heydər Əliyev bu amili nəzərə alaraq deyirdi ki, ***"Məktəb Azərbaycanın gələcəyi üçün böyük məsuliyyət daşıyır"***. Həqiqətən də, bu gün Azərbaycanın gələcəyi məktəbdə yetişən gənclərdən asılıdır. Məktəblərdə gənclər necə yetişəcəksə, ölkəmizin gələcəyi də elə olacaqdır.

Ali Məclisin Sədri demişdir: Məktəblərdə təhsilli, dünyagörüşlü və peşə sahibi olacaq gənclərin hazırlanması ölkənin etibarlı gələcəyindən xəbər verir. Bu səbəbdən də ölkəmizdə məktəb işinə xüsusi diqqət yetirilir. Yaradılan müasir tədris şəraiti imkan verir ki, ümumtəhsil məktəblərini bitirən hər bir gənc ölkəmizlə yanaşı, həm də istənilən xarici ölkədə ali təhsil ala bilsin. Həmçinin ölkəmizdə qəbul olunmuş dövlət proqramlarına uyğun olaraq yaxşı oxuyan gənclər seçilərək xarici ölkələrdə ali təhsil almağa göndərilir. Bu gənclər təhsillərini başa vurub qayıtdıqdan sonra ölkəmizə xidmət edirlər. Ona görə də gənclər hərtərəfli hazırlanmalı, dünya təhsil sisteminə inteqrasiya olunmalıdır. Hər bir gənc təhsil almaqla yanaşı, həm də öz bacarığına və qabiliyyətinə uyğun peşə öyrənməlidir. Muxtar respublikada orta, peşə, orta ixtisas, ali və akademik təhsil pillələri üzrə yaradılan şərait bu vəzifələrin yerinə yetirilməsinə imkan verir.

*Ardı 2-ci səhifədə*





"Təhsilə əsaslanan inkişaf, təhsilli gənclərin yetişməsi ölkənin tərəqqisinə xidmət edir", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, Şərur şəhər 2 nömrəli tam orta məktəbinin nailiyyətləri muxtar respublikanın ümumi orta göstəricisindən yüksəkdir. Bu da onu deməyə əsas verir ki, məktəbdə tədris düzgün qurulmuş, ciddi nizam-intizam və tələbkarlıq vardır.



Ali Məclisin Sədri qazanılan nailiyyətlərə görə kollektivə təşəkkür etmişdir.

Qeyd olunmuşdur ki, məktəb yalnız bugünkü nəsillərə xidmət üçün nəzərdə tutulmayıb. Məktəb gələcək nəsillərin təhsil alması üçün də qorunub saxlanılmalı, müasir tədris avadanlıqlarından səmərəli istifadə olunmalıdır. Müəllimlər və şagirdlər bu vəzifələrin yerinə yetirilməsi üçün cavabdehlik daşımalı, nailiyyətlər daha da artırılmalıdır.

Ali Məclisin Sədri Şərur şəhər 2 nömrəli tam orta məktəbinin muxtar respublikanın qabaqcıl təhsil ocaqları sırasındakı yerini qoruyub saxlayacağına əminliyini bildirmiş, kollektivə tədrisdə uğurlar arzulamışdır.

Bina ilə tanışlıq zamanı qeyd olunmuşdur ki, dördmərtəbəli və 1020 şagird yerlik məktəbdə müasir tədris şəraiti yaradılıb. 5-i elektron lövhəli olmaqla 50 sinif otağı, 2 müəllimlər otağı, 2 şahmat otağı, tibb otağı, bufet, idman zalı, açıq idman qurğuları və mini futbol meydançası şagirdlərin istifadəsinə verilmiş, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə yeni avadanlıqlar və əyani tədris vasitələri ilə təchiz edilmişdir. Məktəbin zəngin kitabxanasında 20 minə yaxın müxtəlif ədəbiyyat toplanmışdır. Onlardan 8973-ü dərslik, 10245-i isə bədii ədəbiyyatdır.

Ali Məclisin Sədri kitabxanadan istifadənin əhəmiyyətini qeyd etmiş, muxtar respublikanın məktəb kitabxanalarında "Oxunulması vacib olan kitablar" guşəsinin yaradılması və şagirdlərdə mütaliə marağının artırılması barədə tapşırıqlar vermişdir.

Məktəbdə 4 kompüter otağı yaradılmış, ümumilikdə, 84 kompüter quraşdırılaraq sürətli internetə çıxışı təmin edilmişdir. Yeni texnologiyalar məktəbdə distant tədrisin tətbiqinə və interaktiv dərslərin keçirilməsinə imkan verir. Elektron lövhəli sinifdə Məhəmməd Tağı Sidqinin Ordubad şəhərindəki ev-muzeyi ilə muxtar respublikanın 208 məktəbi arasında keçirilən distant dərs izlənmişdir.

Ali Məclisin Sədri görkəmli maarifçi və pedaqoq Məhəmməd Tağı Sidqinin Naxçıvanda təhsilin inkişafı sahəsində həyata keçirdiyi tədbirlərin bu gün hər bir müəllim və şagird üçün nümunə olduğunu qeyd etmişdir.

Şərur şəhər 2 nömrəli tam orta məktəbdə 791 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 120 müəllim məşğul olur. 2016-2017-ci tədris ilində birinci sinfə 88 şagird qəbul olunub.

Məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir ki, Şərur şəhər 2 nömrəli tam orta məktəbində yaxşı kollektiv formalaşıb. Bunun nəticəsidir ki, ötən il məktəbin məzunlarından 35-i ali məktəbə, 6-sı isə orta ixtisas məktəbinə qəbul olunub. Məzunlardan 8-i 500-700 arası bal toplayıb. Dövlətimiz tərəfindən müəllim əməyinə yüksək qiymət verilir, diaqnostik qiymətləndirmə aparılır, müəllimlər fəxri adlarla təltif olunurlar. Şərur şəhər 2 nömrəli tam orta məktəbin müəllimlərindən də 1-i Azərbaycan Respublikasının, 1-i isə Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi fəxri adına layiq görülüb. Yeni məktəb binasının istifadəyə verilməsi də məktəb işinə, müəllim əməyinə verilən qiymətin daha bir ifadəsidir. Muxtar respublikada məktəb tikintisi bundan sonra da davam etdiriləcəkdir. Bütün bunların müqabilində isə müəllimlər üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, gənclərin hərtərəfli hazırlanması, təhsil alması və peşə öyrənməsi qayğısına qalmalıdırlar.

Məktəbin tarix müəllimi Elminaz Əlizadə demişdir ki, bu gün Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə inkişafa nail olunmuşdur. Bu inkişafda təhsil xüsusi yer tutur. 2017-ci ilin ötən dövründə muxtar respublikada 5 təhsil müəssisəsinin istifadəyə verilməsi bunu bir daha təsdiq edir. Şərur şəhər 2 nömrəli tam orta məktəbinin yeni binası kollektivdə xoş əhval-ruhiyyə yaratmaqla yanaşı, həm də onların məsuliyyətini artırır. Çalışacağıq ki, göstərilən etimadı doğruldaq, vətənpərvər, təhsilli və dünyagörüşlü gənclər yetişdirək.

## Şərur Rayon Mərkəzi Xəstəxanası əsaslı təmir olunmuşdur





Muxtar respublikada əhalinin ən yüksək səviyyədə tibbi xidmətlərlə təmin olunması diqqət mərkəzində saxlanılır. Yeni səhiyyə müəssisələrinin tikilməsi, mövcud xəstəxana binalarında təmir işlərinin aparılması və müasir tibbi avadanlıqların quraşdırılması bu baxımdan mühüm əhəmiyyətə malikdir.



Martın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərur Rayon Mərkəzi Xəstəxanasında aparılan təmir işləri ilə maraqlanmış, quraşdırılan yeni tibbi avadanlıqlara baxmışdır.

Bildirilmişdir ki, 3 mərtəbədən ibarət olan xəstəxanada 4 şöbə və 6 bölmə fəaliyyət göstərir. Binada əsaslı təmir işləri aparılmış, rentgenflüoqrafiya, kompüter tomoqrafiya və elektroensofaloqramma aparatları quraşdırılmışdır. Quraşdırılan müasir tibbi avadanlıqlar müayinə və müalicə işlərinin yüksək səviyyədə təşkilinə imkan verəcəkdir. Təmir işləri ilə paralel olaraq binanın fasadı da üzlənmiş, həyətində abadlıq işləri aparılmışdır.

Ali Məclisin Sədri tibbi xidmətin təşkili ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası ilə tanışlıq “Ölkəmizi tanıyaq” tur-aksiyası iştirakçılarında zəngin təəssürat yaradıb

***“Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyası çərçivəsində martın 23-də Bakı şəhərinin Səbail, Sabunçu, Suraxanı, Nizami, Yasamal və Pirallahı rayonlarının məktəblərindən olan 160 şagird Naxçıvan Muxtar Respublikasına gəlib. Tur-aksiya iştirakçıları Naxçıvan Beynəlxalq Hava Limanında qarşılanıblar.***

Məktəblilər əvvəlcə ümummilli liderimizin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər.

“Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə tanışlıq “Ölkəmizi tanıyaq” tur-aksiyası iştirakçılarının böyük marağına səbəb olub.

Qonaqlar “Naxçıvan” Universitetində də olublar. Tur-aksiya iştirakçılarının diqqətinə çatdırılıb ki, universitet kompleks şəkildə yenidən qurulub və hər cür maddi-texniki bazaya malikdir. Qeyd olunub ki, hazırda universitetdə 21 ixtisas üzrə kadr hazırlığı aparılır. “Naxçıvan” Universitetinin dünyanın 50-dən artıq universiteti ilə əlaqələri vardır.

* * *

Martın 24-də “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyası çərçivəsində bakılı məktəblilər qədim diyarın Ordubad və Culfa rayonlarının ərazisində yerləşən tarixi abidələr, mədəniyyət və təhsil müəssisələri ilə tanış olublar.

Əvvəlcə şagirdlər Ordubad şəhərindəki 3 nömrəli tam orta məktəblə tanış olublar.

Akademik Yusif Məmmədəliyevin, görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin, tarixi roman janrının banisi Məmməd Səid Ordubadinin ev-muzeyləri ilə tanışlıq da paytaxt məktəblilərində böyük maraq doğurub.

Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi “Qeysəriyyə” tarixi binasına gələn məktəblilərə buradakı eksponatlar barədə məlumat verilib.

Culfa rayonuna ekskursiya zamanı məktəblilər Gülüstan türbəsinə gəliblər. Məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 7 oktyabr tarixli Sərəncamına əsasən, rayon ərazisində yerləşən dünya əhəmiyyətli Gülüstan türbəsi elmi və tarixi əsaslarla bərpa olunub.



Məktəblilərin səfər etdikləri məkanlardan biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən bərpa olunan “Əlincəqala” tarixi abidəsi və “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyi olub. Diqqətə çatdırılıb ki, “Əlincəqala” tarixi abidəsindəki qala divarları, bürc və giriş qapıları, qədim yaşayış evləri, təsərrüfat binaları, su hovuzları və təndirlər, səngər və mühafizə yerləri ilkin forması saxlanılaraq bərpa edilib. Qala divarları və bürclər əzəmətli görkəmi ilə Naxçıvan memarlıq məktəbinin qədim izlərini özündə yaşadır.

* * *

Martın 25-də Naxçıvan Dövlət Universitetinin kampusu ilə tanışlıq zamanı şagirdlərə universitet barədə ətraflı məlumat veriblər. Bildirilib ki, universitetin 108 hektarlıq ərazisində 16 tədris korpusu, elektron kitabxana, konservatoriya, sosial xidmət mərkəzi, universitet xəstəxanası, baytarlıq klinikası, olimpiya-idman mərkəzi, 2 stadion, müasirtipli tələbə evi yerləşir. Hazırda ali təhsil ocağının 10 fakültəsində 50-dən çox ixtisas üzrə 6 min nəfərə yaxın tələbə, o cümlədən xarici ölkələrdən olan tələbələr də təhsil alırlar. Bu ali məktəb 80-dən çox tanınmış dünya universiteti ilə tərəfdaşlıq etməklə yanaşı, bir sıra beynəlxalq layihələrdə də uğurla təmsil olunur.

“Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyasının iştirakçıları martın 25-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda da olublar.

“Farma Şah” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə tanışlıq zamanı



bildirilib ki, 2009-cu ildə təsis edilən müəssisə 2010-cu ildən tam fəaliyyətə başlayıb. Şahbuz şəhərində yerləşən müəssisədə paketlənmiş dərman bitkiləri, çaylar və bəkməzlər istehsal olunur.

Sonra tur-aksiya iştirakçıları Şahbuz şəhər 2 nömrəli tam orta məktəblə tanış olublar.

Şagirdlər Batabat Astrofizika Rəsədxanasında səma cisimlərinin dinamikası və fizikasının öyrənilməsi istiqamətində aparılan araşdırmalar barədə məlumatları maraqla dinləyiblər.

Şahbuz Dövlət Təbiət Qoruğu ilə tanışlıq isə buradakı muzeydən başlayıb.

Ağbulaq İstirahət Mərkəzi də tur-aksiya iştirakçılarının marağına səbəb olub.

* * *

Həmin gün məktəblilər “Badamlı” və Naxçıvan Avtomobil zavodları ilə tanış olublar, Biznes Mərkəzində muxtar respublikadakı istehsal və xidmət müəssisələri tərəfindən istehsal olunan məhsulların sərgisinə baxıblar.

* * *

Martın 26-da Duzdağ Fizioterapiya Mərkəzində olan tur-aksiya iştirakçıları sonra “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinə gələrək muxtar respublika ərazisində aşkarlanan tarixi əşyalar haqqında ətraflı məlumat alıblar.

Şagirdlər Novruz bayramı ilə əlaqədar Naxçıvanqalada keçirilən şənlikdə iştirak ediblər, xalq rəqslərini maraqla izləyiblər.

Naxçıvan Dövlət Tarix Muzeyi məktəblilərdə dərin təəssürat yaradıb. Diqqətə çatdırılıb ki, ekspozisiyalar, əsasən, qədim, orta əsrləri, yeni və müasir dövrü əhatə edir.

Naxçıvan şəhərində yerləşən Dövlət Bayrağı Meydanı və Muzeyi də şagirdlərdə böyük maraq doğurub. Qeyd edilib ki, Dövlət Bayrağı Meydanı və Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il avqustun 22-də imzaladığı “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında” Sərəncama əsasən yaradılıb.

* * *

Həmin gün Naxçıvan şəhərindəki Gənclər Mərkəzində “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiya çərçivəsində muxtar respublikada səfərdə olan bakılı məktəblilərlə görüş olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev mərkəz barədə məlumat verərək deyib ki, bu məkan 2014-cü ildə muxtar respublika gənclərinin istifadəsinə verilib. Dördmərtəbəli binada elektron lövhəli 3 linqafon sinfi, kompüter otağı, elektron kitabxana, intellektual və stolüstü oyun zalları, interaktiv tir və kafe var. Mərkəzdə informasiya texnologiyalarının ən son nailiyyətləri tətbiq edilib, 104 kompüter dəsti quraşdırılıb, mərkəzi server sistemi və daxili şəbəkə yaradılıb, kompüterlərin hər birinin internetə çıxışı təmin edilib. Gənclər burada istənilən xarici dil üzrə həm nəzəri biliklərə, həm də praktik olaraq düzgün tələffüz vərdişlərinə yiyələnirlər.

Məmməd Babayev Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən həyata keçirilən “Ölkəmizi tanıyaq” tur-aksiyanın böyüməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi, dünyagörüşünün formalaşması baxımından böyük əhəmiyyətə malik olduğunu vurğulayıb. Qeyd edib ki, son illərdə tur-aksiyalar çərçivəsində ölkəmizin müxtəlif rayonlarından, o cümlədən paytaxt Bakıdan olan məktəblilərin muxtar respublikaya səfərləri onların bu qədim diyarın tarixi, mədəniyyəti, sosial-iqtisadi inkişafı ilə yaxından tanış olmalarına geniş imkan yaradıb.

Muxtar respublikanın təhsil naziri Məmməd Qəribov çıxışında bildirib ki, qədim diyarda təhsil davamlı və müasir tələblər səviyyəsində inkişaf etdirilir. Yeni məktəb binalarının istifadəyə verilməsi, müasir tədris şəraitinin yaradılması tədrisin keyfiyyətini yüksəldib.

Bakı şəhərinin Pirallahı rayonunun 168 nömrəli tam orta məktəbinin coğrafiya müəllimi Təhminə Şamilova muxtar respublikada onlara göstərilən yüksək diqqət və qayğıya, qonaqpərvərliyə görə dərin minnətdarlığını bildirib. Vurğulayıb ki, bu gün blokada şəraitində yaşayan Naxçıvan özünün sürətli inkişafı ilə hər kəsin diqqətini cəlb edir. Bu gün muxtar respublikada bütün sahələrdə böyük nailiyyətlər əldə olunub.

Tədbirin sonunda tur-aksiya iştirakçılarına hədiyyələr təqdim edilib.

* * *

Dörd gün ərzində bu qədim diyarın tarixi və mədəniyyəti ilə yaxından tanış olan məktəblilər martın 26-da Naxçıvan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola salınıblar.

* * *

Bakı şəhərində səfərdə olan naxçıvanlı şagirdlər də həmin gün muxtar respublikaya qayıdıblar.

## Tur-aksiya iştirakçıları: “Naxçıvanın möhtəşəm tarixi abidələri, inkişafı, buradakı abadlıq, təmizlik hər birimizi heyran etdi”

*“Ölkəmizi tanıyaq” devizi altında keçirilən tur-aksiya çərçivəsində Naxçıvanda olan məktəblilər muxtar respublikadan zəngin təəssüratlarla ayrıldıqlarını vurğuladılar.*

***Bakı şəhərinin Suraxanı rayonundakı 278 nömrəli tam orta məktəbin şagirdi Xəyal Hacıyev:***



– Mən Naxçıvan barədə ancaq kitablardan, kütləvi informasiya vasitələrindən nəsə eşidir, öyrənirdim. Bilirdim ki, Naxçıvan qədim tarixə malik diyarımızdır. Lakin atalarımız demişkən, yüz dəfə eşitməkdənsə, bir dəfə görmək daha yaxşıdır. Dörd gün ərzində gəzib-gördüklərimiz indiyəcən bu torpaq haqqında eşitdiklərimdən qat-qat artıq oldu. Bura, doğrudan da, müqəddəs torpaqdır. Naxçıvanın inkişafı, buradakı abadlıq, təmizlik hər birimizi heyran etdi. Gəzinti əsnasında muxtar respublikanın rayonlarında fəaliyyət göstərən məktəblərə də baş çəkdik. Həmin məktəblərdə olan şərait, avadanlıqlar da bizi heyrətləndirdi. Bu məktəblər ölkəmizin paytaxtında fəaliyyət göstərən təhsil ocaqları kimi müasirdirlər.

Mən Naxçıvanın 26 ildir ki, blokada şəraitində yaşadığını bilirdim. Blokada şəraitində olan bir diyarda uşaqlar üçün belə təhsil şəraitinin yaradılması bizə xoş təsir bağışladı. Muxtar respublikanın yollarına isə söz ola bilməz. Nəqliyyatda da heç bir problemlə qarşılaşmadıq. Mən deyərdim ki, Naxçıvan əhalisinin ən böyük xoşbəxtliyi həm də burada tıxacların olmamasıdır.

Naxçıvan Dövlət Universiteti ilə tanış olduqdan sonra gələcəyimlə bağlı önəmli bir qərar qəbul etdim. Əgər ali məktəblərə qəbul imtahanlarında yaxşı nəticə ilə tələbə adını qazanmaq şansını əldə etsəm, Naxçıvan Dövlət Universitetini də seçim vərəqəsində qeyd edəcəyəm. Dörd gündə bizə göstərilən qayğıdan, mehriban münasibətdən hiss etdim ki, burada yaşayan insanlar çox qonaqpərvərdirlər. Bizə gözəl diyarımız Naxçıvanla daha yaxından tanış olmaq imkanı yaratdığı üçün dövlət başçımıza çox minnətdaram.

***Bakı şəhərinin Nizami rayonundakı 242 nömrəli məktəbin şagirdi Alsu Xayrullina*** da şagird yoldaşının dediklərini təsdiqləyir:



– Çox təəssüflənirik ki, bu gün bizim muxtar respublikadakı son günümüzdür. Ancaq sevinirəm ki, biz qədim Naxçıvanla tanış olmaq imkanı əldə etdik. Dörd gün ərzində biz muzeylərdə, məktəblərdə, müxtəlif müəssisələrdə olduq və onlar barədə kifayət qədər məlumat öyrəndik. Kitablarda adlarına rast gəldiyimiz, barələrində, sadəcə, şifahi məlumatımız olan Məhəmməd Tağı Sidqi və Məmməd Səid Ordubadinin ev-muzeylərində olduq və burada onların əlyazmalarını, əsərlərini əyani şəkildə gördük. Ordubaddakı Tarix-Diyarşünaslıq Muzeyində də tariximizlə bağlı mühüm bilgilər əldə etdik. Rayonun mərkəzində tikilmiş 3 nömrəli tam orta məktəblə də tanış olduq. Ən son avadanlıqlarla təchiz olunmuş məktəbdə şagirdlərin təhsili üçün yaxşı şərait yaradılıb. Yalnız Ordubadda deyil, gəzdiyimiz bütün rayonlarda məktəblərin hamısı yüksək səviyyədə idi. Bu da onu göstərir ki, Naxçıvan, sadəcə, tarixi, mədəniyyəti ilə deyil, eyni zamanda təhsili ilə də özünün inkişaf dövrünü yaşayır.

Sonuncu gün “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən Novruz şənliyinə də qatıldıq. Həmişə eşidirdim ki, naxçıvanlılar Novruzu çox yüksək səviyyədə qeyd edirlər. Bu dəfə eşitməklə qalmayıb buna özüm şahidlik etdim. Hətta bizi rəqsə dəvət etdilər. Biz də onlara qoşulub birgə rəqs etdik, yallı getdik.

Naxçıvanda məni ən çox heyrətləndirən yerlərdən biri isə Duzdağ Fizioterapiya Mərkəzi oldu. Azərbaycanın hər yerindən, hətta dünyanın müxtəlif ölkələrindən buraya müalicə məqsədilə gələnlərin olduğunu eşitmişdim. Mən isə ilk dəfə idi, Duzdağa gəlirdim. Bura, doğrudan da, bəşəriyyət üçün bir nemətdir, sağlamlıq mənbəyidir.

Biz burdan heç vaxt yaddan çıxmayacaq təəssüratlarla qayıdırıq. Gördüklərimizi sinif yoldaşlarımıza, bütün tanıdıqlarımıza danışacaq, muxtar respublika ilə bağlı xoş təəssüratlarımızı onlarla da bölüşəcəyik. Məndən soruşsalar ki, Naxçıvan necə bir yer idi, onda qədim diyarın tarixi abidələrindən, gözəl təbiətindən danışacağam, deyəcəyəm ki, ora istiqanlı, mehriban, gülərüz insanların yaşadığı məkandır!

*Bu arada qeyd edək ki, Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Naxçıvan Muxtar Respublikasından Bakıya yola salınan şagirdlər də martın 26-da muxtar respublikaya qayıdıblar. Onların da gəzib-gördükləri yerlər barədə təəssüratlarını öyrəndik.*

***Ordubad şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Lalə Cəlilova*** bildirdi ki, bu tur-aksiyada iştirak etdiyi üçün özünü olduqca şanslı hesab edir:



“Tur-aksiya çərçivəsində paytaxtımız Bakı şəhərinin gəzməli-görməli, tarixi əhəmiyyətli yerlərində olduq, həmin yerlər barədə daha dolğun məlumatlar aldıq. Biz dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzinin binası ilə tanış olduq. Burada nümayiş etdirilən “Azərbaycan inciləri” sərgisi ilə tanışlıq isə bizim üçün daha maraqlı idi”.

***Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Könül Əliyeva*** da öz təəssüratlarını bizimlə bölüşərək dedi ki, Heydər Əliyev və Şirvanşahlar sarayları, Qız qalası, Beynəlxalq Muğam Mərkəzi, Azərbaycan Xalça Muzeyi və sair yerlərdə olduq.



Gəzib-gördüyümüz hər yerdən çox xoş təəssüratlarla ayrıldıq. “Atəşgah məbədi”ndə gördüklərimi və eşitdiklərimi heç vaxt unutmayacağam. Tur-aksiya sayəsində çox şey öyrəndik. Bununla yanaşı, biz yeni dostlar da qazandıq.

Fatma BABAYEVA

# Naxçıvanqalada keçirilən Novruz şənlikləri böyük maraqla qarşılanıb

***Bu il mart ayının 18-dən başlayan Novruz şənlikləri yurdumuzun hər yerində olduğu kimi, Naxçıvanda da böyük coşqu ilə keçirilib. Baharın gəlişini, təbiətin oyanışını bayram edən muxtar respublika sakinlərinin bu gözəl yaz günlərindəki sevincinə tamaşa etməyə dəyərdi. Qədim diyarımıza gəlmiş turistlər də dəstə-dəstə Naxçıvanqalaya və şəhərin digər gəzməli-görməli yerlərinə axın ediblər.***

Novruzun ilk günlərində olduğu kimi bayram ab-havası martın 27-dək davam edib. Havaların gözəl keçməsi də adamları sevindirirdi. Bu il nisbətən uzun və sərt keçən qışdan sonra uşaqlı-böyüklü hər kəs şəhərdə gəzib alış-veriş etməyə, ailəlikcə istirahət edib əylənməyə daha çox maraq göstərirdi. Bayram günlərində muxtar respublikaya gəlmiş çox sayda turistlər də öz asudə vaxtlarını mənalı keçirmək üçün yaxşı fürsət qazanmışdılar. Əksəriyyəti qonşu ölkələrdən gələn turistlər Naxçıvandakı gəzməli-görməli yerlərlə tanış olur, Naxçıvanqalada keçirilən bayram şənliyinə qatılır, buradakı zəngin iaşə xidmətlərindən istifadə edirdilər.

Naxçıvanqalada tanış olduğumuz iranlı turist Həsən Həmidi öz təəssüratlarını bizimlə bölüşərək dedi ki, Naxçıvana 15 il əvvəl gəlmişdik. Bu dəfə gələndə gördüklərimizdən heyrətləndik. Ailə üzvlərimiz və dostlarımızla birgə Naxçıvanı gəzib dolaşmaq bizim üçün çox xoşdur. Hələ bir neçə gün də buradayıq. Duzdağı görmək, Əshabi-Kəhfi ziyarət etmək istəyirik. Buranın yeməklərini bizim uşaqlar çox bəyəndilər. Naxçıvanlıların qonaqpərvərliyini heç vaxt unutmayacağıq. Qismət olsa, gələn Novruzda da Naxçıvana gələcəyik.

Naxçıvanqalada görüşdüyümüz turistlərdən Əbülfəz Suzani, Rəhim Çodari, Dilek Ayyıldız da təəssüratlarını bizimlə bölüşərək dedilər ki, Novruz bayramı günlərində əsrarəngiz diyar olan Naxçıvan Muxtar Respublikasında olmaqdan çox məmnundurlar. Çünki bu günlərdə bayram ab-havası muxtar respublikanın hər tərəfində hiss olunur, insanlar bir-birini təbrik edir. Bu, biz turistlərin də diqqətindən yayınmır. Naxçıvanqalada keçirilən şənlik isə daha da maraqlıdır. Tarixi abidənin içərisində keçirilən şənliklərdə qədim dövrlərin elementlərinin canlandırılması məkan ilə həmahənglik təşkil edir, insanı valeh edir.

Qeyd edək ki, Naxçıvanda martın 27-dək davam etdirilən Novruz bayramında yerli əhalinin və turistlərin rahat istirahəti üçün bütün xidmət sahələrində geniş hazırlıq işləri aparılmışdı. Bu günlərdə Naxçıvana daha çox turistin gəlməsi nəticəsində otellərdə yerlərin əksəriyyəti tutulmuşdu. Sərnişin nəqliyyatı, ticarət və iaşə xidmətlərində xeyli canlanma yaranmışdır.

✍ **Əli CABBAROV**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 3 aprel 2017-ci ildə saat $10^{00}$-da hərraca çıxarılacaq dövlət nəfinə müsadirə edilmiş əmlaklar haqqında məlumat

| Sıra №-si | Müsadirə edilən əmlakın adı | Ölçü vahidi | Miqdarı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 10 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | Dairəvi qızıl sikkə | ədəd | 1 | 2018.25 | 201.83 |
| 2. | Dördkünc qızıl sikkə | ədəd | 1 | 6500 | 650.0 |
| 3. | Müxtəlif təsvirli dairəvi qızıl sikkə | ədəd | 1 | 2015 | 201.5 |
| 4. | Müxtəlif təsvirli dairəvi qızıl sikkə | ədəd | 1 | 4032.60 | 403.26 |
| 5. | Dairəvi qızıl sikkə | ədəd | 1 | 2017.60 | 201.76 |
| 6. | Naxışlı qızıl sikkə | ədəd | 1 | 700.98 | 70.10 |
| 7. | “MAURİCE LACROIX” qol saatı | ədəd | 1 | 1700 | 170.00 |
| 8. | “MAURİCE LACROIX” qol saatı | ədəd | 1 | 1400 | 140.00 |
| 9. | “TİSSOT 1853” markalı qol saatı | ədəd | 1 | 1500 | 150.00 |
| 10. | “TİSSOT 1853 AUTOMATİK” markalı qol saatı | ədəd | 1 | 1800 | 180.00 |
| 11. | “LONGİNES” markalı 12 qaşlı qol saatı | ədəd | 1 | 1700 | 170.00 |
| 12. | “Lois Erard AUTOMATİK” markalı qol saatı | ədəd | 1 | 1300 | 130.00 |
| 13. | “VERTU HANDMADE” markalı mobil telefon | ədəd | 1 | 8500 | 850.00 |

Məlumat dərc olunduğu gündən hərracda iştirak etmək istəyən hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlaklara sifariş vermək üçün Auksion Mərkəzinə müraciət edə bilərlər. Hərraclarda alıcı hesab edilən sifarişi və digər zəruri sənədləri təqdim etmiş, satılan əmlakın ilkin satış qiymətinin 10 faizi həcmində behi Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin AZ21NABZ12360100000000005944 nömrəli hesabına ödəmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

Sifarişlər və aşağıdakı sənədlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk prospekti 42) 31 mart 2017-ci il tarixdə hərrac keçirilməsinə ən azı 3 bank günü qalanadək qəbul olunacaqdır:

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;*

*- Maliyyə Nazirliyinin hesabına ödənilmiş 10 faiz behin hesaba ödənilməsini təsdiq edən ödəmə sənədinin surəti.*

Hərrac 3 aprel 2017-ci il tarixdə, saat $10^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 7 aprel 2017-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlak haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın (15 %) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 % həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 0,408 hektar torpaq sahəsində yerləşən 10 nömrəli, 5 mərtəbəli binanın 5-ci girişində, 4-cü mərtəbəsində 80.10 kv.m ümumi,56.30 kv.m yaşayış sahəsindən ibarət 4 otaqlı, 47 nömrəli mənzil | Naxçıvan şəhəri, “İstiqlal” küçəsi | 60 000 | 51 000 | 3 000 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 % məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesaba 4 aprel 2017-ci il tarixədək ödənilməlidir.

Hərracda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesaba köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- ödəniləcək behin qəbzi;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 7 aprel 2017-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

*AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Dilçilik şöbəsinin elmi işçisi Leyla Səfərovanın “Azərbaycanda ingilis dili qrammatikasının tədqiqi tarixi” adlı monoqrafiyası işıq üzü görüb.*

*Yeni nəşrlər*

## Yeni monoqrafiya işıq üzü görüb




Bölmənin rəyasət heyətinin qərarı ilə çap olunan kitabın elmi redaktoru filologiya üzrə elmlər doktoru, professor Fikrət Cahangirov, rəyçiləri AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyev və filologiya üzrə elmlər doktoru, professor Adil Babayevdir.

Monoqrafiyada ölkəmizdə günümüzədək ali məktəblər üçün yazılan dərslik və dərs vəsaitlərində, eləcə də tədqiqat işlərində ingilis dilinin qrammatikasının öyrənilməsi istiqamətində aparılan araşdırmalar geniş şəkildə öz əksini tapıb.

Tədqiqat əsərində müəllif ilk dəfə olaraq Azərbaycanda ingilis dili qrammatikasının azərbaycanlı dilçilər tərəfindən necə və hansı prinsiplər əsasında yerinə yetirilməsini araşdırır. Eyni zamanda ölkəmizdə ingilis dilinin tədrisi tarixi, qrammatikasının tədqiqinin təşəkkülündə rolu olan dilçilərin fəaliyyətini xronoloji ardıcıllıqla tədqiq edir, o cümlədən Azərbaycanda mövcud olan və uzun illər istifadə edilən keçmiş sovet müəlliflərinin, bəzi dünya dilçilərinin kitablarındakı dil faktları ilə qarşılaşdıraraq müqayisələr aparır.

Yeni nəşr magistrlər, doktorantlar, həmçinin ingilis dilinin nəzəri problemləri ilə məşğul olan hər bir kəs üçün nəzərdə tutulub.

**AMEA Naxçıvan Bölməsinin**
**İnformasiya şöbəsi**

## Şahmat yarışları keçirilib



Şahbuz Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsinin təşkilatçılığı ilə tam orta məktəblərdə təhsil alan sağlamlıq imkanları məhdud şagirdlər arasında şahmat yarışı keçirilib.

Yarışdan öncə rayon Gənclər və İdman İdarəsinin əməkdaşı İdris Qəhrəmanov və Uşaq-gənclər şahmat məktəbinin direktoru Əli Gülmalıyev çıxış edərək yarışın keçirilmə qaydaları haqqında məlumat veriblər.

İsveçrə sistemi üzrə keçirilən yarışın yekun nəticəsinə əsasən 4,5 xal toplayan Şıxı Şıxıyev qalib adını qazanıb. Zəka sahiblərindən 4 xal toplayan Fatimə Yusifli ikinci, 3,5 xal aktivinə yazan Qurban Məmmədov üçüncü olublar.

Sədərək rayonunda da oğlan və qızlardan ibarət şahmatçılar arasında şahmat turniri keçirilib. Rayon Şahmat Məktəbində keçirilən yarış olimpiya sistemi üzrə olub. 40-dan çox zəka sahibinin mübarizəsində oğlanlar arasında birinciliyi Nicat Əlizadə əldə edib. Gökan Hüseynov ikinci, Murad Rzazadə isə üçüncü yerlə kifayətləniblər. Qızların mübarizəsində isə Salatın Baxşıyeva hamıdan güclü olub. Digər iki pillədə isə Şəfayət Bayramlı və Aygün Dünyamalıyeva qərarlaşıblar.

Sonda hər iki turnirin qaliblərinə təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

## Boksçularımız beynəlxalq turnirin qalibi olublar

***Ölkəmizdə ənənəvi keçirilən boks üzrə “Böyük İpək Yolu” beynəlxalq turnirinə yekun vurulub. 9-cu dəfə təşkil olunan yarışda əvvəlki illərdən fərqli olaraq qadın komandaları da mübarizə aparıblar.***

Üç gün davam edən turnirdə kişilərdən ibarət Azərbaycan milli komandası ilə yanaşı, Rusiya və İran komandaları tam heyətlə iştirak ediblər. Bununla birlikdə Qazaxıstan, Özbəkistan, Gürcüstan və Qətər seçmələri də turnirdə təmsil olunublar.

Qadınların mübarizəsinə gəlincə, Azərbaycan yığması ilə bərabər Türkiyə, Ukrayna və Belarus boksçuları da çempionluq uğrunda mübarizə aparıblar. Ümumilikdə, 100-ə yaxın boksçunun iştirak etdiyi turnirdə Naxçıvan boksçuları – Sərxan və Tayfur Əliyev qardaşları da millimizin heyətində rinqə çıxıblar.

Azərbaycan millisini 60 kiloqram çəki dərəcəsində təmsil edən Sərxan Əliyev mübarizəyə 1/4 final mərhələsindən qoşulub. Həmyerlimiz ilk olaraq qazaxıstanlı Serik Temurcanovu mübarizədən kənarlaşdırıb. Finala gedən yolda dəri əlcək sahibimiz daha bir Qazaxıstan boksçusu Mirzobek Boladavu da məğlub edib. Həlledici qarşılaşmada rusiyalı Vladimir Nikitinlə görüşü qələbə ilə başa vuran Sərxan Əliyev turnirin qalibi olub.

56 kiloqram çəki dərəcəsində mübarizə aparan həmyerlimiz Tayfur Əliyev də ölkəmizə qızıl medal qazandırıb. Mübarizəyə birbaşa yarımfinaldan qoşulan Tayfur bu mərhələdə milli komandanın digər üzvü Malik Həsənovu üstələyib. Final görüşündə boksçumuzun rəqibi qazaxıstanlı Bekcan Kuralov olub. Rinqi qələbə ilə tərk edən Tayfur Əliyev 2015-ci ildə olduğu kimi yenə “Böyük İpək Yolu” turnirinin qalibi olub.

Sonda qalib idmançılarımıza təşkilatçılar tərəfindən diplom, medal və hədiyyələr təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Sivakova Yelena Vyaçeslavovnanın adına Bakı Slavyan Universiteti tərəfindən verilmiş diplom itdiyindən etibarsız sayılır.

* * *

Əsədov Ehtiram Nəsrulla oğlunun adına 24.09.1999-cu ildə verilmiş 033567 nömrəli veteran vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 244